# REGİONUN MEŞƏ VƏ OTLAQ EKOSİSTEMLƏRİ

**Zemfira Hacıyeva**

*AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu, zemfira.hajiyeva@outlook.com*

Qarabağ Kür və Araz çayları arasında geniş ərazini əhatə edir və bu metropoliyanın yaxın şərq hissəsi ovalıq, qərb hissəsi isə dağlıq zonalardan ibarətdir.

Antropogen sistemi allüvial-prolüvial çöküntülərindən təşkil olunub.

Qarabağ yaylası Zəngəzur və Qarabağ silsilələri arasında Tərtər və Həkəri çaylarının yuxarı axarında yerləşir. Okean səviyyəsindən orta hündürlüyü 2000-2500 metrdir.

Yaylanın iqlimi soyuqdur, qışı xeyli sərt keçir, yağıntıların illik miqdarı 500-800 mm-dir. (Nə?) Tərtər, Hocazsu, Zabux, Bazarçay, Qarabağ yaylasından başlanır. Yaylanın torflu dağ-çəmən torpaqlarında alp, çimli dağ-çəmən torpaqlarında subalp çəmənləri geniş sahəni əhatə edir. Orta dağlıqda vələs-palıd meşələri vardır. Tarixi Qarabağ vilayətinin mühüm hissəsini Kiçik Qafqazın Qarabağ və Zəngəzur dağ silsilələri təşkil edir. Yura və təbaşir sistemlərinin çökmə və vulkanik süxurlarından əmələ gəlmiş Qarabağ dağları polimetal filizlər, xromit, miş, tikinti daşı mərmər, kəc, əhəng xammalı, gil və s. ilə zəngindir, mineral su ehtiyatlarına malikdir.

Qarabağ Kiçik Qafqazın cənub-qərb çıxıntısının davamıdır. Dağların hündürlüyü 1400-dən 3740 metrə çatır. Qarabağın ərazisini 4 şərti zonaya bölmək olar:

– Yüksək dağlıq zona 1800-3000 m yüksəklikdə olan, əsasən çəmənliklərdən ibarət yaylaqlardır. Yaylaqların ümumi sahəsi təxminən 3700 ha təşkil edir. Bu zonaya ildə 600 mm yağıntı düşür;

– Dağlıq zona 950 m-dən 1800 m-ə qədər yüksəklikdə yerləşir, illik yağıntının miqdarı 400-600 mm-dir. Burada 169 min ha enliyarpaq meşələr mövcud olub.

– Dağətəyi zona 300-950 m qədər yüksəklikdə olub, mülayim-isti iqlimə malikdir;

– Meşəlik ərazidə torpaq tünd boz, qızılı, alp çəmənliklərində gümüşlə zəngindir. Yaylaqlar çəmənliklərdən ibarətdir. Yaylaqlardan aşağıda dağların yamacları meşələr və kolluqlarla örtülmüşdür. Bu zona rütubətli iqlimi ilə fərqlənir, qısamüddətli və dövri yağışlar yağır, tez-tez duman olur. Zəngin bitki örtüyünə malik ərazilərdə çoxsaylı bitki növləri vardır. Düzənlikdə yovşanlı-şoranotlu yarımsəhra dağ ətəklərində daşdayan, şibyə, yovşanlı-darağotlu bozqır və yarımboz qız bitkiləri, dağ yamaclarında kolluqlar bitir.

Zəngəzur yaylası Tərtər və Arpa çaylarınadək meridian istiqamətində uzanır. Silsilənin qərb yamacları çöl və yarımsəhra bitkiləri, şərq yamacları enliyarpaq meşələr (palıd, vələs, göyrüş, ağcaqayın) və subalp çəmənləri ilə örtülüb.

Qədim tarixə malik Qarabağ bitki aləminin zənginliyinə görə xalq təbabətinin geniş yayıldığı bölgələrdən biridir. Burada yayılmış dərman bitkilərindən (19 fəsil və 28 cinsdən ibarət 35 növü Qafqaz endemi) 32 növü nadir və itmək təhlükəsində olan, Azərbaycan Respublikasının "Qırmızı kitab"ına daxil edilmiş bitkilərdir.

Beləliklə, Qarabağ regionunun meşə və otlaq ekosistemini şərti olaraq 5 zonaya bölmək olar: yaylaqlar, dağ zonası, dağətəyi, aran zona və çöllük.

Təbii ki, Qarabağın ekosistemi haqqında tam təsəvvürə malik olmaq üçün bu məsələyə kompleks – sistemli yanaşılması vacibdir.